# İnam və əqidə yolunda

Qəribədir, “Kredo”nun 1000-ci sayı məndə ilk sayın təəssüratını daha çox xatırladır. 1999-cu il oktyabr ayının əvvəlləri - qəzetin ilk sayının hazırlanmağı daha çox yaddaşımda təəssürat oyadır. Qəzetin ilk sayına xeyir-dua verməyim, uğur diləməyim və 1-ci səhifədə “Söz dünyanın naxışıdır” adlı qısa təbrik məktubumun dərc olunması da yadımdadır. Açığı, o vaxt qəzetin belə bir uzun yol keçəcəyi mənim üçün o qədər də real görünmürdü. Çünki biz beşilliklər, onilliklər ölçüsündə daha çox düşünürdük. Amma iş elə gətirdi ki, biz “Kredo”nun yaşarılığı naminə yollar aradıq. Doğrudur, “Kredo” qəzetinə inamla yanaşmayanlar da oldu. Çoxları elə düşünürdü ki, göy gurultusundan sonra leysan yağış kimi “Kredo” görünüb yoxa çıxacaq. Ancaq belə olmadı. “Kredo” özünün Azərbaycan mənəvi mühitinin aynası olaraq simasını göstərdi və onu qorumağı bacardı.

Qəzetin ilk saylarına təbriklər vermiş mərhum Natiq Əliyevin, Əmir Mustafayevin adlarını indi xatırlamaq insanlıq borcumuzdur. Görkəmli jurnalist - alim Cahangir Məmmədlinin, Xalq yazıçısı Əzizə Cəfərzadənin, tanınmış mətbuat xadimlərinin - Firudin Rəsulovun, Mədət Məmmədovun qəzetin ilk saylarından iştirakları bu gün xoş xatirələrlə yaddaşa gəlir.

Biz “Kredo”nu yaşatdıq - inam, əqidə təlqini üçün yaşatdıq!

Kredo 2020.- 18 iyun.- S.1.